Ümumilikdə, qeydiyyatdan keçmiş 10 ali təhsil müəssisəsinin 42 komandasından ikinci final mərhələsinə 6 tədris ocağını təmsil edən 20 komanda vəsiqə qazana bilib. Xatırladaq ki, ilk turda 30 faiz bal toplayan komandalar final mərhələsinə vəsiqə qazanıblar.

Finalda Qafqaz Universiteti 8, Moskva Dövlət Universitetinin Bakı filialı 5, Bakı Dövlət Universiteti 4, Azərbaycan Texniki Universiteti 1, Azərbaycan Dövlət Neft Akademiyası 1 və Naxçıvan Dövlət Universiteti 1 komanda ilə mübarizə aparacaqlar.

Bu ilki olimpiada birinci mərhələdə respublikanın regionlarından iştirak edən komandaların sayının artması ilə yanaşı, tədbirə ilk dəfə qatılan və 5 komanda ilə iştirak edən Moskva Dövlət Universitetinin Bakı filialının bütün komandalarının final mərhələsinə vəsiqə qazanması ilə əlamətdardır.

Olimpiadanın final mərhələsi 2010-cu il mayın 8-də AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda keçiriləcək.

Onu da qeyd edək ki, informatika üzrə beynəlxalq komanda yarışlarının yarımfinalında Azərbaycanı təmsil edəcək komandanın seçimi və hazırlanması işinə xidmət edən olimpiadanın sponsorları HP-nin Azərbaycan nümayəndəliyi, Sinam, Ultra, Bakcell, Azerfon, Detla Telecom və R.I.S.K şirkətləridir.